# UŞAQLARI ALDATMAQ MÜMKÜN DEYİL



## “BİZDƏ ƏSAS FİKİR TAMAŞAÇININDIR”

**Rəşad Əhmədzadə:** “Kukla Teatrının aktyorlarının bütün səhnə ömrü, yaradıcılıq həyatı şirmanın və ya üzlüyün arxasında keçir. Yəni digər teatrlarda 20 aktyor varsa, ən azı 10-u artıq tanınır. Bizdə isə 25 nəfərdən bir-ikisi tanınır, o da əsasən



SÖHBƏTLƏŞDİ
XANIM AYDIN
khanimaydin@kaspi.az

Uşaqların dünyası oyuncaqlardan – kuklalardan, teatrın dünyası isə Kukla Teatrından başlayır. Hər ikisinin başlanğıcı kuklalardır. Bəli, yolumuz Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrınadır. Həmsöhbətimiz teatrın direktoru, Azərbaycanın Əməkdar mədəniyyət işçisi Rəşad Əhmədzadədir.

### “UŞAQLAR ƏN TƏMİZ TAMAŞAÇIDIRLAR”

“Teatr mənim üçün çox önəmlidir”, – deyir Rəşad bəy: “Teatr fəaliyyətinə səhnə maşinistliyindən başlamışam. Kukla Teatrı mənə o biri teatrlardan bir az daha yaxındır. Çünki 1996-cı ildən burada fəaliyyət göstərirəm. Bütün teatrların aktyorları eyni universiteti bitirib, eyni təhsili alıb. Amma səhnə məsələsinə gəlincə, Kukla Teatrının aktyorlarının bütün səhnə ömrü, yaradıcılıq həyatı şirmanın və ya üzlüyün arxasında keçir. Yəni digər teatrlarda 20 aktyor varsa, ən azı 10-u artıq tanınır. Bizdə isə 25 nəfərdən bir-ikisi tanınır, o da əsasən çəkildikləri verilişlərin hesabına. Düşünürəm ki, onlara dəstək daha çox olsa, yaxşıdır. Universiteti bitirən gənclər bəzən bura müvəqqəti – 1-2 illik işləməyə gəlirlər ki, sonra başqa teatra getsinlər. Amma çox vaxt dəvət alsalar da, getmirlər. Yəqin ki, uşaqlarla ünsiyyətdən, uşaqlar üçün oynamaqdan daha böyük zövq alırlar. Uşaqlar ən təmiz tamaşaçıdır. Onları aldatmaq, hər hansı maraqsız tamaşanı maraqlı adıyla təqdim etmək də mümkün deyil”.

> *“O qədər məşhur aktyorlar olub ki, gəlib hər hansısa obrazı canlandırmağa. Amma kuklayla 3-5 məşqdən sonra alınmayıb. Yaşar Nuri kimi istedadlı aktyorumuz “Məşədi İbad”ı oynayanda 1-2 məşqdən sonra dedi ki, bəlkə kuklasız oynayım?”*

### “YAŞAR NURİ KİMİ İSTEDADLI AKTYORUMUZ DEDİ Kİ...”

Kukla Teatrının aktyorlarının fərqindən, işlərinin çətin tərəflərindən də danışdı Rəşad bəy: “Plastikası olmayan aktyor bəlkə də başqa teatrlarda işləyə bilər. Amma Kukla Teatrında bu mümkün deyil. Çünki kuklaidarəetmədə ilk şərt aktyorun plastikasıdır. O, istər-istəməz aktyorun kuklasına köçür. Təsəvvür edin, aktyor səhnəyə çıxmaq üçün tamaşanın sözlərini əzbərləməli, tələffüzünü müəyyənləşdirməli, səsini dəqiqləşdirməlidir. Üstəlik, 5-6 kq ağırlığında kuklanı bir saat ərzində səhnədə saxlaya bilməlidir. O qədər məşhur aktyorlar olub ki, gəlib hər hansısa obrazı canlandırmağa. Amma kuklayla 3-5 məşqdən sonra alınmayıb. Yaşar Nuri kimi istedadlı aktyorumuz “Məşədi İbad”ı oynayanda 1-2 məşqdən sonra dedi ki, bəlkə kuklasız oynayım? Digər səhnələrdə aktyorun ancaq özü oynayır, amma burada mimika, intonasiya, jestlər də kuklaya köçməlidir”.

### “TEATR VAR VƏ HƏMİŞƏ DƏ OLACAQ”

Rəşad bəy başqa bir məqama da toxundu: “Bəzən deyirlər ki, teatr ölüb! Xeyr! Belə bir şey yoxdur! Tamaşaların hamısı, demək olar, anşlaqla keçir. Narazılıq edənlərsə heç vaxt teatra getməyənlərdir. Soruşursan, heç yadına düşmür ki, nə vaxt teatra gedib. Texnologiyanın yüksək inkişafı dövründə yaşayırıq. Fikir var ki, bu, teatra, teatrın inkişafına mənfi təsir edəcək. Teatr var və

“Repertuar əsasən uşaqların reaksiyasına uyğun yenilənir, müəyyənləşdirilir”, - deyir Rəşad bəy: “Təxminən 10 tamaşadan sonra bəyənilib-bəyənilmədiyini müzakirə edirik. Xoşa gəlməyən tamaşanı repertuarda saxlamağın mənası yoxdur. Hazırda dünya və öz klassikamız, üstəlik müasir əsərlərdən ibarət 44 tamaşalıq repertuarımız var. Rejissorun, bəstəkarın – hamının baxış bucağına hörmətlə yanaşırıq. Amma bizdə əsas fikir tamaşaçınındır. O bəyənirsə, bilet satılırsa, deməli, alınıb. Tamaşaçı qəbul etməyibsə, deməli, işimizdə bir dəyişiklik etməliyik. İşimiz digər teatrlardan həm də ona görə fərqlənir ki, biz həm uşaqları razı salmalıyıq, həm də valideynləri. Çünki valideyn bəyənməsə uşağını gətirməyəcək, uşaq bəyənməsə, valideyn gətirsə də, içəri girməyəcək. Yəni işimiz ikiqat çətinləşir. Bizim teatrımız digər teatrlara tamaşaçı hazırlayır. Axı bura lap balacalar gəlir. Tamaşaçının zövqünü korlamağa haqqımız yoxdur. Repertuarımız yüz ölçülüb, bir biçilir. İşimiz həm də uşaqlarda teatra sevgi yaratmaqdır”.

### “TEATRIN KUKLALARI BİZİM ÜÇÜN “CANLIDIR”

Rəşad bəy deyir ki, teatrın kuklaları bizim üçün “canlıdır”: “Yaranmağa başladığı ilk gündən necə hazırlanmasını izləyir, əlinə alır, hiss edirsən. Tam hazır olana qədər yavaş-yavaş ona alışırsan. Kuklanın bütün mexanizmi aktyorun fiziki ölçülərinə, əlinə uyğun hazırlanır. Beləliklə, kukla aktyorla doğmalaşır”.

Rəşad bəy deyir ki, 15 il əvvəl onların hansısa bir festivala getmələri müşkül məsələ olub: “Tamaşanın videosunu göndərməliydik, seçilsə, müsabiqədən keçsə, gedə bilərdik. Dəfələrlə ölkəmizdə beynəlxalq teatr festivalları keçirildi. Xarici ölkə teatrları bizi, biz onları izlədik. Yəni yaradıcılıq mübadiləsi getdi. Son 5-6 ildə festivallara demək olar ki, müsabiqəsiz gedirik, bizdən heç video tələb olunmur. Hətta 90 faiz bütün xərclərimizi də dəvət edən tərəf qarşılayır. Dövlət proqramının bizə daha bir böyük xeyri o idi ki, bəzi kuklaları xaricdə sifariş etməli olurduq. Amma indi hamısı burada hazırlanır”.





Fotolar: Əhməd Hətəmzadə/Global Media Group